# “Google” müsəlman ölkəsini xəritədən sildi

“Google” hər hansı bir sorğu aparmadan xəritədən Fələstini “yox etdi” və yalnız İsrailə yer verdi.

“Din.az” xəbər verir ki, böyük reaksiyaya səbəb olan yeni tətbiqə qaşı başladılan kampaniyaya 175 mindən çox insan imza atıb.

“Google Maps” adlı tətbiqində Fələstini dünya xəritəsindən aşkar şəkildə sildi.

Qırıq-qırıq xətlər…

Milyonlarla istifadəçi “Google”un xəritəsini açaraq bölgədə yanız İsrailin yer aldığını görüb. Fələstin torpaqlarının isə sadəcə qırıq-qırıq xətlərlə verildiyi diqqət çəkib.

İmza kampaniyası başladılıb…

Sosial şəbəkədə dərhal #PalestinelsHere haştaqı ilə hərəkətə keçən minlərlə insan şirkətdən yenidən Fələstin adını xəritəyə qoymasını istəyib.

Lakin “Google”dan mövzu ilə bağlı hələ rəsmi açıqlama verilməyib.

